**“AZFİNANCE İNVESTİSİYA ŞİRKƏTİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ**

Hər birinin nominal dəyəri 1 000 (bir min) ABŞ dolları olan 1 000 (bir min) ədəd diskontlu, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların

# EMİSSİYA PROSPEKTİ

**Qeyd: Azərbaycan Respublikası Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.**

AzFinance
INVESTMENT COMPANY

**Emissiya prospektinin tərtib edilməsində iştirak edən şəxslər və Emissiya prospektində təqdim edilmiş məlumatlara dair**

**B Ə Y A N A T**

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2. Tədavül müddəti 1 il (360 gün), hər birinin nominal dəyəri 1 000 (bir min) ABŞ dolları olan 1 000 (bir min) ədəd diskontlu, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlarının Emissiya Prospektinə daxil edilən məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**Direktor** **İntiqam Səfərəliyev**

**Əməliyyat və mühasibatlıq**

**departamentinin rəhbəri-Baş Mühasib** **Aqşin Əzizov**

AzFinance
INVESTMENT COMPANY

# MÜNDƏRİCAT


1. Xülasə------------------------------------------------------------------------------ 4
2. İstiqrazların emitenti barədə məlumat---------------------------------------10
3. İstiqrazlar barədə tələb olunan məlumat----------------------------------- 16
4. Təklifin şərtləri-------------------------------------------------------------------19
5. Ticarətə buraxılma və onun tənzimlənməsi ------------------------------- 21

X Ü L A S Ə

**1. XƏBƏRDARLIQ**

1.1. Bu sənəd emissiya prospektinin giriş hissəsidir;

1.2. Istiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçirilimәlidir;

1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

| **2. Emitent haqqında məlumat** | |
|---|---|
| **2.1. emitentin tam adı** | "AzFinance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti. |
| **2.2. emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə.** | Qapalı Səhmdar Cəmiyyəti, Cəmiyyətin hüquqi ünvanı və olduğu yer: Azərbaycan Respublikası, Bakı şəhəri, Cəlil Məmmədquluzadə 102 A |
| **2.3. emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri.** | Emitentin müstəsna fəaliyyət istiqaməti investisiya şirkəti fəaliyyətidir. Ölkədə baş verən bütün iqtisadi islahatlar emitentin fəaliyyətinə müsbət təsir göstərməkdədir. Ölkə başçısı tərəfindən təsdiq edilən Strateji Yol Xəritələrində qiymətli kağızlar bazarının inkişaf etdirilməsinə dair müvafiq qurumlara tapşırıqların verilməsi, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Fəaliyyət Planında qiymətli kağızlar bazarının inkişaf etdirilməsi ilə bağlı tədbirlərin əlavə olunması, həmçinin son zamanlar dövlət şirkətlərinin, korporativ sektorunun kapital bazarı vasitəsi ilə investisiyaların cəlb edilməsi mexanizmində fəal iştirakı, investorların fond bazarı haqqında məlumatlara marağın artması müsbət dinamikanın davam etməsinə şərait yaradır. Bundan əlavə olaraq, kütləvi təklif üsulu ilə yerləşdirilən qiymətli kağızların gəlir vergisindən (fiziki şəxslər üçün) azad |

| | |
|---|---|
| | edilməsi də bu sahənin inkişafına öz müsbət təsirini göstərməkdədir. |
| **2.4. emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd.** | Emitentin "AzFinance Asset Management" Məhdud Məsuliyyətli Cəmiyyətində 990 (doqquz yüz doxsan) payı mövcuddur (99% iştirak payı).<br>Emitentin "AzeSteelCompany" Açıq Səhmdar Cəmiyyətində 5 435 490 ədəd adi, sənədsiz səhmi mövcuddur (65.06% iştirak payı).<br><br>Emitentin "Optimal Finance Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətində 70 payı mövcuddur (70% iştirak payı). |
| **2.5. gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd.** | Mövcud deyil |
| **2.6. audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri.** | Konsolidasiya edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "AzFinance İnvestisiya Şirkəti" QSC-nin və onun törəmə müəssisəsinin 31 dekabr 2021-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (BMHS) uyğun olaraq düzgün əks etdirir. |

**2.7.** son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri.

| **Azərbaycan manatı ilə** | 31 dekabr 2022 | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|---|
| **Mənfəət /Zərər vergidən əvvəl** | 881,685 | 1,059,775 | 468,122 |
| **Mənfəət/Zərər vergidən sonra** | 705,127 | 870,482 | 312,895 |
| **Aktivlər** | | | |
| **Cəmi Aktivlər** | 8,097,565 | 5,051,719 | 2,449,941 |
| **Cəmi Öhdəliklər** | 4,496,836 | 2,055,367 | 223,320 |
| **Kapital** | | | |
| **Nizamnamə kapitalı** | 1, 550, 000 | 1, 550, 000 | 1,550,000 |
| **Cəmi Kapital** | 3,600,729 | 2, 996,352 | 2,226,621 |
| **Cəmi Öhdəliklər və Kapital** | 8,097,565 | 5, 051, 719 | 2,449,941 |

**Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat** - emitentin fəaliyyətində heç bir dəyişiklik olmamışdır.

| | |
|---|---|
| **2.8. emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr** | Ölkədə qiymətli kağızlar bazarına olan maraq emitentin fəaliyyətinin genişləndirilməsinə təsir etmişdir. Bundan əlavə olaraq, AR Mərkəzi Bankı tərəfindən qərara alınmışdır ki, banklarla yanaşı qeyri-neft və qeyri-dövlət sektorunda fəaliyyət göstərən rezident kommersiya hüquqi şəxsləri də (maliyyə və sığorta fəaliyyəti ilə |

| | |
|---|---|
| | məşğul olan hüquqi şəxslər istisna edilməklə) müəyyən limitlər tətbiq etməklə notlara sahib olmaq hüququ əldə etsinlər. Limitlər bankların likvidlik mövqeyində və qiymətli kağızlar bazarının müxtəlif seqmentlərində kəskin dəyişikliklərə yol verməmək məqsədilə tətbiq edilir. Qisamüddətli notların həcminin genişləndirilməsi investorların sayını artırmaqla qiymətli kağızlar bazarında aktivliyə müsbət təsir göstərəcəkdir. |
| **2.9. emitentin əsas fəaliyyətlərinin təsviri.** | Emitent investisiya Şirkəti fəaliyyəti ilə məşğul olur. Həmin fəaliyyət müstəsna fəaliyyətdir. İnvestisiya şirkəti tərəfindən təqdim olunan əsas və yardımçı investisiya xidmətləri dedikdə aşağıdakılar nəzərdə tutulur:<br>✓ qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul edilməsi;<br>✓ müştərilərin sifarişlərinin icra edilməsi;<br>✓ ərdi investorlarlarm portfelinin idarəedilməsi;<br>✓ investisiya məsləhətlərinin verilməsi;<br>✓ qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;<br>✓ qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;<br>✓ öz hesabına qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə əməliyyatların aparılması.<br>Yardımçı investisiya xidmətləri:<br>✓ müştərilərinin qiymətli kağızlarının hesablarının idarəedilməsi və saxlanılması, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;<br>✓ investorlara qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə əqdlərin bağlanması üçün kreditlərin və ya borcların verilməsi, o halda ki, əqd həmin investisiya şirkəti tərəfindən həyata keçirilir;<br>✓ hüquqi şəxsin kapital strukturu, fəaliyyət strategiyası və yenidən təşkili üzrə məsləhətlərin verilməsi;<br>✓ qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlili;<br>✓ təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı;<br>✓ əsas investisiya xidmətlərinin həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi. |
| **2.10. mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti.** | Mühüm iştirak payının sahibi tərəfindən Nəzarət emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir. Ümumi yığıncaqlar arası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti səhmdarların ümumi yığıncağı tərəfindən təyin edilmiş Müşahidə Şurası həyata keçirir. |
| **3. İstiqrazlar haqqında məlumat** | |
| **3.1. istiqrazların növü.** | Diskontlu, təmin edilməmiş, adlı istiqrazlar. |

AzFinance
INVESTMENT COMPANY

| | |
|---|---|
| **3.2. istiqrazların valyutası.** | ABŞ dolları |
| **3.3. istiqrazların təsbit olunan məhdudiyyətlər.** | Məhdudiyyət nəzərdə tutulmamışdır. |
| **3.4. istiqrazların təsbit olunmuş hüquqların təsviri.** | İstiqrazın mülkiyyətçisi aşağıdakı hüquqlara malikdir:<br>İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;<br>Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda istiqrazların nominal dəyərini vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;<br>Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar. |
| **3.5. istiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri.** | Diskontlu istiqrazlar üzrə gəlir, onların nominal dəyərindən aşağı qiymətə alınması və müddətin sonunda nominal dəyərin ödənilməsindən formalaşır.<br><br>Y= ((P_1-P_0)) / P_0 *T/t*100<br>Y – illik gəlirlik<br>P_1 – nominal dəyər (1 000 ABŞ dolları)<br>P_0 – Alış qiyməti<br>T – baza period (360 gün)<br>t – Tədavül müddətinin sonuna qalan günlər.<br>diskontlu olduğu üçün |
| **3.6. istiqrazların geri satın alınma şərtləri.** | İstiqrazların geri satın alınması nəzərdə tutulmayıb. |
| **3.7. gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi.** | Y= ((P_1-P_0)) / P_0 *T/t*100<br>Y – illik gəlirlik<br>P_1 – nominal dəyər (1 000 ABŞ dolları)<br>P_0 – Alış qiyməti<br>T – baza period (360 gün)<br>t – Tədavül müddətinin sonuna qalan günlər. |
| **3.8. istiqrazların mülkiyyətçisinin təmsilçisinin adı.** | Nəzərdə tutulmayıb. |
| **3.9. istiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri.** | İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə hərracın keçirilməsi ilə “Bakı Fond Birjası” QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.<br>“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti<br>VÖEN-i: 1700262271<br>Dövlət qeydiyyatının tarixi və nömrəsi: 27.08.1997-ci il, № 3<br>“Bakı Fond Birjası” QSC müddətsiz lisenziyaya malikdir. Fəaliyyət istiqaməti - Dövlət qiymətli kağızları bazarının, korporativ qiymətli kağızlar bazarının, törəmə |

| | |
|---|---|
| | maliyyə alətləri bazarının ticarətinin təşkil və idarə edilməsidir. Qiymətli kağızların ticarətə buraxılması “Bakı Fond Birjası” QSC-nin “Bakı Fond birjasında qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları” na əsasən həyata keçirilir. |
| **3.10. təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları.** | valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;<br>faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;<br>inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;<br>likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranmasının mümkünlüyü;<br>əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;<br>hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;<br>kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;<br>təbii - insan fəaliyyətindən asılı olmayan risklər (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər). |
| **3.11. istiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları** | Kəskin devalivasiyanın olması - müştərilərimizin öhdəliklərin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəyiflənməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır. |
| **3.12. təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi.** | Emissiyanın məqsədi alternativ maliyyə resurslarının cəlb edilməsi yolu ilə cəmiyyətin fəaliyyətinin genişləndirilməsi və bu yolla mənfəətin əldə edilməsidir. |
| **3.13. təklifin şərtlərinin təsviri.** | İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə hərracın keçirilməsi yolu ilə “Bakı Fond Birjası” QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. İstiqrazlar məhdudiyyət olmadan bütün fiziki və hüquqi şəxslərə təklif olunacaqdır. İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında” Qaydaların 3.12-ci bəndinə əsasən, |

| | |
|---|---|
| | istiqrazların yerləşdirilməsinə başlanılması tarixinə ən azı 2 iş günü qalmış “AzFinance İnvestisiya Şirkəti” QSC qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixini və hərracın keçirilməsi şərtlərini elan edəcək və fond birjasına bu barədə yazılı bildiriş göndəriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. |
| **3.14. emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat.** | **“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**<br>“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra-BFB) yeni emissiya ediləcək istiqrazlarının listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir.<br>BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ-hüquqi aktları və BFB-nin nizamnaməsi və Daxili Qaydaları ilə tənzimlənir.<br>**Milli Depozit Mərkəzi** Milli Depozit Mərkəzi (bundan sonra- MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. İstiqrazların yerləşdirilməsi prossesində MDM-in əsas vəzifəsi istiqrazların saxlanması və istiqraz mülkiyyətçilərinin reyestrinin aparılmasıdır.<br>Milli Depozit Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının “Qiymətli kağızlar bazarı haqqında” Qanunu və MDM-in daxili Qaydaları ilə tənzimlənir.<br>**Anderrayter**<br>Emitent qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti ilə məşğul olduğunu nəzərə alaraq, istiqrazların anderrayteri qismində özü çıxış edəcəkdir. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil. |
| **3.15. istiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği.** | AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. |

| | |
|---|---|
| | - əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;<br>- investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;<br>- "depo" hesab açılması üçün 10 manat;<br>- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir). |

## 4. İSTİQRAZLARIN EMITENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

**4.1. Emitentin auditorları barədə məlumat**

**4.1.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorlarının adı | Auditorlarının ünvanları | Auditorlarının hər hansı təşkilatda üzvlüyü |
|---|---|---|---|
| 2020 | "RSM Azerbaijan" MMC | Bakı ş., Dəmirçi Plaza, Xocalı pr. 37. | - |
| 2021 | "RSM Azerbaijan" MMC | Bakı ş., Dəmirçi Plaza, Xocalı pr. 37. | - |
| 2022 | "RSM Azerbaijan" MMC | Bakı ş., Dəmirçi Plaza, Xocalı pr. 37. | - |

**4.1.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat -** əvəz edilməmişdir.

**4.2. Seçilmiş maliyyə məlumatı**

**4.2.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri.**

| **Azərbaycan manatı ilə** | 31 dekabr 2022 | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|---|
| **Mənfəət/Zərər vergidən əvvəl** | 881,685 | 1,059,775 | 468,122 |
| **Mənfəət/Zərər vergidən sonra** | 705,127 | 870,482 | 312,895 |
| **Aktivlər** | | | |
| **Cəmi Aktivlər** | 8,097,565 | 5,051,719 | 2,449,941 |
| **Cəmi Öhdəliklər** | 4,496,836 | 2,055,367 | 223,320 |
| **Kapital** | | | |
| **Nizamnamə kapitalı** | 1, 550, 000 | 1, 550, 000 | 1,550,000 |
| **Cəmi Kapital** | 3,600,729 | 2, 996,352 | 2,226,621 |

## 5. Emitent barədə məlumat

**5.1. Emitentin tam adı, təşkilati-hüquqi forması-** “AzFinance İnvestisiya Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti;

**5.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri -** Qeydiyyata alındığı tarix - 30.01.2014-cü il, VÖEN- 1303538081;

**5.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilatihüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi -**
Emitent «AzFinance Invest» Məhdud Məsuliyyətli Cəmiyyətinin çevrilməsi yolu ilə yenidən təşkil nəticəsində yaradılmışdır. Emitent «AzFinance Invest» MMC-nin hüquqi varisidir. Dəyişiklik 30.01.2014-cü il tarixində dövlət qeydiyyatına alınmışdır.

**5.4. Emitentin olduğu yer və poçt ünvanı –** Cəlil Məmmədquluzadə 102A AZ 1022, Bakı, Azərbaycan, **elektron poçt ünvanı -**info@afi.az, **, emitentin internet səhifəsinin ünvanı-**www.afi.az, **əlaqə telefonları-** +99412 310 33 22; +99450290-44-77;

**5.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə) –** “AzeSteelCompany” Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 1 manat olan 5 435 490 ədəd adi, sənədsiz səhm əldə etmişdir;

**5.6. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat-** İdarəetmə orqanlarının gələcək investisiyalar ilə bağlı öhdəlikləri mövcud deyil;

**5.7. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat-** İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə hərracın keçirilməsi ilə “Bakı Fond Birjası” QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti
VÖEN-i: 1700262271
Dövlət qeydiyyatının tarixi və nömrəsi: 27.08.1997-ci il, № 3
“Bakı Fond Birjası” QSC müddətsiz lisenziyaya malikdir. Fəaliyyət istiqaməti- Dövlət qiymətli kağızları bazarının, korporativ qiymətli kağızlar bazarının, törəmə maliyyə alətləri bazarının ticarətinin təşkil və idarə edilməsidir. Qiymətli kağızların ticarətə buraxılması “Bakı Fond Birjası” QSC-nin “Bakı Fond birjasında qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları”na əsasən həyata keçirilir.

**6. Emitentin biznesinin icmalı -**

**6.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri -**
Emitent İqtisadiyyat Nazirliyi tərəfindən 6 yanvar 2016-cı il tarixində verilmiş İSN/L-7/2016 nömrəli Lisenziya əsasında İnvestisiya Şirkəti fəaliyyəti ilə məşğul olur. Həmin fəaliyyət müstəsna fəaliyyətdir. İnvestisiya şirkəti tərəfindən təmin olunan əsas və yardımçı investisiya xidmətləri dedikdə aşağıdakılar nəzərdə tutulur:

Əsas investisiya xidmətləri:

- qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul edilməsi;
- müştərilərin sifarişlərinin icra edilməsi;
- ərdi investorlarlarm portfelinin idarəedilməsi;
- investisiya məsləhətlərinin verilməsi;

* qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;
* qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;
* öz hesabına qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə əməliyyatların aparılması.

Yardımçı investisiya xidmətləri:

* müştərilərinin qiymətli kağızlarının hesablarının idarəedilməsi və saxlanılması, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;
* investorlara qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə əqdlərin bağlanması üçün kreditlərin və ya borcların verilməsi, o halda ki, əqd həmin investisiya şirkəti tərəfindən həyata keçirilir;
* hüquqi şəxsin kapital strukturu, fəaliyyət strategiyası və yenidən təşkili üzrə məsləhətlərin verilməsi;
* qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlili;
* təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı;
* əsas investisiya xidmətlərinin həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.

**6.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu-** Emitent cari ildə trader.az elektron platformasını istifadəyə vermişdir. TRADER.AZ investorlara yerli və xarici şirkətlərinin səhm və istiqrazlarını alıb-satmağa imkan yaradan unikal ticarət platformasıdır. AzFinance İnvestisiya şirkəti tərəfindən yaradılan bu platforma investorlar üçün bir sıra əməliyyatları tam rəqəmsallaşdırıb. Artıq ofisə gəlmədən siz öz sifarişlərinizi elektron qaydada bizə təqdim edə bilərsiniz. Trader.az-da qiymətli kağızlarla ticarət etməyə başlamaq üçün elektron qaydada müqavilə bağlamaq kifayətdir. Müştərini identifikasiya etmək üçün AzFinance İnvestisiya şirkəti müştəri ilə video-görüntülü bağlantıdan istifadə edə bilər.

**6.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri -** emitentin müstəsna fəaliyyət istiqaməti investisiya şirkəti fəaliyyətidir. Bu fəaliyyət ilə əlaqədar olaraq qiymətli kağızlar bazarı əsas göstəricidir.

**6.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması -** mövcud deyil.

**7. Digər təşkilatlarda iştirak**

**7.1. Emitentin digər hüquqi şəxslərdə qısa təsviri -**

* Emitentin “AzFinance Asset Management” Məhdud Məsuliyyətli Cəmiyyətində 990 (doqquz yüz doxsan) payı mövcuddur (99% iştirak payı).
* Emitentin “AzeSteelCompany” Açıq Səhmdar Cəmiyyətində 5 435 490 ədəd adi, sənədsiz səhmi mövcuddur (65.06% iştirak payı).
* Emitentin “Optimal Finance Bank Olmayan Kredit Təşkilatı” Məhdud Məsuliyyətli Cəmiyyətində 70 payı mövcuddur (70% iştirak payı).

**7.2. Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi -** Emitent heç bir qrupa daxil deyil.

**8. Tendensiyalar barədə məlumat**

**8.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olub-olmadığı barədə məlumat-** mənfi dəyişiklik olmamışdır;

**8.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum**

**tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat-** Emitent ticari ildə mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi kredit təşkilatlarının səmərəli olmasına şərait yaradıb və hal-hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

**9. Gəlir proqnozu -** Mövcud deyil**.**

**10. Emitentin idarəetmə və nəzarət orqanları**

**10.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**Müşahidə Şurasının Sədri**- Mamedov Abid Mamed oğlu;

**Müşahidə Şurasının Sədrinin funksiyaları**- öz səlahiyyətləri daxilində Emitentin fəaliyyəti üzərində nəzarəti həyata keçirmək; Emitentin İcra Orqanının tərkibini habelə İcra Orqanının sədrini təyin/yenidən təyin etmək və vəzifədən kənarlaşdırmaq; Emitentin icra orqanının üzvünün şəxsi marağı ilə Cəmiyyətin mənafeyi arasında ziddiyyətə səbəb ola bilən əqdlərin bağlanması barədə müraciətə baxaraq qərar qəbul etmək; Cəmiyyətin maliyyə fəaliyyətinin təftişinin keçirilməsi barədə qərar qəbul etmək; öz səlahiyyətinə aid məsələlərlə bağlı Cəmiyyətin idarə olunmasına görə Səhmdarların Ümumi Yığıncağı (Səhmdarı) qarşısında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşımaq.

**Direktor**- Səfərəliyev İntiqam Bəhman oğlu,

**Direktorun funksiyaları-** Müşahidə şurasına hesabat verir; Emitentin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini qanunvericiliyə və Emitentin Nizamnaməsinə əsasən təşkil edir; yeni texnologiyaların tətbiqi ilə bağlı qərarlar qəbul edir; Emitentin daxili intizam qaydalarını müəyyən edir; Emitentin strukturunu təsdiq edir və struktur bölmələrinin rəhbərlərinin səlahiyyətlərini müəyyən edir; Bütövlükdə Emitentin və ya onun struktur bölmələrinin, həmçinin Emitentin törəmə müəssisələrinin, filial və nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi ilə bağlı qərar qəbul edir; Emitentin perspektiv inkişaf planı, digər müəssisələrə kapital qoyuluşu, Emitentin Nizamnaməsinə əlavə və dəyişikliklər edilməsi, Emitentin illik maliyyə hesabatı və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları, mənfəət və zərərin bölüşdürülməsi barədə Səhmdarların Ümumi Yığıncağına (Səhmdara) təkliflər verir; Emitentin fəaliyyətində idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə qurumların yaradılması, yenidən təşkil olunması və ləğv edilməsi barədə qərar qəbul edir; Emitentin nümayəndəliklərini, filiallarını, törəmə müəssisələrini yaratmaq və onların fəaliyyətinin tənzimlənməsi haqqında qərar qəbul etmək; Filial və nümayəndəliklərinin, həmçinin törəmə müəssisələrinin rəhbərlərini müəyyən edilmiş qaydada vəzifəyə təyin/yenidən təyin etmək və vəzifədən azad etmək; Emitentin vəsaitlərinin yaradılması və istifadəsi qaydalarının müəyyən etmək; Öz səlahiyyətləri çərçivəsində Emitentin daxili münasibətlərini tənzimləyən normativ sənədlərin layihələrini hazırlamaq və təsdiq etmək; Emitentin fəaliyyəti ilə bağlı öz səlahiyyətləri çərçivəsində Emitentin Nizamnaməsindən nəzərdə tutulan(tutulmayan) məsələlər barəsində ayrıca əsasnamə və qərarlar qəbul etmək (Səhmdarların Ümumi Yığıncağının (Səhmdarın) razılığı tələb olunduğu hallar istisna təşkil edir); Emitentin adından etibarnaməsiz fəaliyyət göstərir, habelə Emitenti bütün dövlət orqanlarında, müəssisələrdə, idarələrdə və təşkilatlarda (o cümlədən beynəlxalq təşkilatlarda) təmsil edir; Emitentin əmlakı barədə qanunvericiliklə müəyyən edilmiş qaydada sərəncam verir, müqavilələr bağlayır, etibarnamələr verir, banklarda hesablaşma hesabı, kredit hesabı və digər hesablar açır; Azərbaycan Respublikasının dövlət orqanlarına hər hansı sənədləri təqdim edir və Azərbaycan Respublikasının dövlət orqanlarından onları qəbul edir; Emitentin filial və

nümayəndəliklərinin, həmçinin törəmə müəssisələrinin rəhbərləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür; Emitentin filial və nümayəndəliklərinə, həmçinin törəmə müəssisələrinə göstərişlər verir.

**10.2. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallar-**İdarəetmə orqanlarının xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyət mövcud deyil. Bu cür halların qarşısının alınması məqsədi ilə Emitent tərəfindən ""AzFinance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətində maraqlar münaqişəsinin qarşısının alınması və aidiyyəti şəxslər ilə əqdlərin bağlanması barədə daxili Qaydalar" qəbul olunmuşdur.

**11. İdarə heyətinin işgüzar praktikası**

**11.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı -** Mükafatlandırılma komitəsi Emitent tərəfindən yaradılmamışdır.

Audit Komitəsi

Audit Komitəsinin sədri- Ramin Nurəhmədov;

Audit Komitəsinin üzvü- Aqşin Əzizov;

Audit Komitəsinin üzvü- Nərmin Şıxəliyeva

Komitə 16.09.2021-ci il tarixində "AzFinance İnvestisiya Şirkəti" QSC-nin Müşahidə Şurası tərəfindən yaradılmışdır. Audit Komitəsinin əsas vəzifələri Daxili nəzarət sistemlərinin effektivliyinin və adekvatlığının yoxlanılması və qiymətləndirilməsi, auditin nəticələrinə dair hesabatların tərtib edilməsidir.

**11.2. Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə Hesabat:**

Emitentin təşkilati hüquqi forması qapalı səhmdar cəmiyyət olduğunu nəzərə alaraq, Emitent idarəetmə orqanlarını Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-ci maddəsinə əsasən formalaşdırmışdır. Bundan əlavə olaraq, Emitent öz fəaliyyətinə nəzarət etmək üçün daxili nəzarət tədbirləri həyata keçirir. Həmçinin, qanunvericiliyin tələblərinə əsasən hər il daxili audit üzrə hesabat Müşahidə Şurasının sədrinə təqdim olunur. Emitent investisiya şirkəti fəaliyyəti ilə məşğul olduğu üçün "Qiymətli kağızlar bazarı haqqında" Qanunun tələblərinə əsasən hər il maliyyə hesabatlarını hamı üçün açıq şəkildə dərc etdirir. Bundan əlavə olaraq Emitentin aşağıdakı məlumatları da dərc etmək öhdəliyi mövcuddur:

hesabat dövrü üzrə maliyyə göstəriciləri;

aidiyyəti şəxslərlə bağlanılmış və xüsusi əhəmiyyətli əqdlər;

cəlb edilmiş maliyyə vəsaitləri;

idarəetmə orqanları və vəzifəli şəxslər, onların əsas və əlavə iş yerləri;

idarəetmə strukturu;

inkişaf siyasəti;

səhmdar kapitalının gəlirliyi və dividend siyasəti;

idarəetmə orqanlarının hər bir üzvünə verilən ödənişlər;

investisiyaların həcmi və mənbəyi;

cəmiyyətin qiymətli kağızlarının dövriyyəsi və gəlirliyi;

ictimai layihələr.

İdarəetmə orqanlarının fəaliyyətinin təşkili korporativ idarəetrmə standartları rəhbər tutularaq Azərbaycan Respublikasının Qanunvericiliyi və Emitentin nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

AZFINANCE
INVESTMENT COMPANY

**12. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər**

**12.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti -** Mamedov Abid Mamed oğlu, Azərbaycan vətəndaşı, 1317 ədəd adi sənədsiz adlı səhm, 84.97%-iştirak payı, Səfərəliyev İntiqam Bəhman oğlu- Azərbaycan vətəndaşı, 233 ədəd adi sənədsiz adlı səhm, 15.03%-iştirak payı.

**12.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-**istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri- Mühüm iştirak payının sahibi Emitentə nəzarət emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Ümumi yığıncaqlar arası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti səhmdarların ümumi yığıncağı tərəfindən təyin edilmiş Müşahidə Şurası həyata keçirir. Bundan əlavə olaraq, Emitentin qanunvericiliyə uyğun olaraq təşkil olunmuş daxili nəzarət siyasəti mövcuddur.

**12.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat-** bu cür məlumat mövcud deyil.

**13. Emitentin maliyyə məlumatları**

**13.1. Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları-**
Emissiya prospektinə əlavə olunur və hesabatlarla aşağıdakı linkə daxil olub tanış olmaq olar:
https://www.azfinance.az/storage/posts/188239636e2f61d.pdf
https://www.azfinance.az/storage/posts/610d385838c4373.pdf
https://azfinance.az/storage/posts/f6ffd98df8.pdf

**13.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları** - Emitent 30.01.2014-cü il tarixindən fəaliyyət göstərir;

**13.3. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır –** Emitentin maliyyə hesabatları MHBS-yə uyğun olaraq hazırlanmışdır;

**13.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda) -** Emissiya prospektinə əlavə olunur və hesabatlarla aşağıdakı linkə daxil olub taniş olmaq olar:
https://www.azfinance.az/storage/posts/188239636e2f61d.pdf
https://www.azfinance.az/storage/posts/610d385838c4373.pdf
https://azfinance.az/storage/posts/f6ffd98df8.pdf

**13.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir-** mövcud deyil;

**13.6. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir -** Son 3 ilin audit olunmuş maliyyə hesabatları təqdim olunmuşdur və son 2022-ci il üzrə təqdim edilmiş hesabatdan 9 ay ötməyib.

**13.7. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla) -** mövcud deyil;

**13.8. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat-** Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində dəyişiklik baş verməmişdir.

**14. Emitent haqqında əlavə məlumatlar**

**14.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu-** Cəmiyyətin nizamnamə kapitalı 1.550.000 (bir milyon beş yüz əlli min) manatdır. Nizamnamə kapitalı hər birinin nominal dəyəri 1000 (bir min) manat olan, 1550 (bir min beş yüz əlli) ədəd adi, sənədsiz adlı səhmlərdən ibarətdir. Nizamnamə kapitalını təşkil edən adi səhmlər ilə təsbit olunan hüquqlar aşağıdakı kimidir:

-cəmiyyətin idarə edilməsində Mülki Məcəllə, digər qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək;

-qanunvericiliklə müəyyən edilmiş qaydada, cəmiyyətin fəaliyyətinə dair məlumat almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

-cəmiyyətin ümumi yığıncağının çağırılmasını tələb etmək;

-cəmiyyətin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə edilməsini tələb etmək;

-səhmdarların ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

-cəmiyyətin fəaliyyətinin auditor tərəfindən yoxlanılmasını tələb etmək;

-cəmiyyətin xalis mənfəətindən dividend almaq;

-cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

-Mülki Məcəllə və səhmdar cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

**14.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat-**

- **Fəaliyyət və məqsədlərin təsviri-** Emitentin müstəsna fəaliyyəti investisiya şirkəti fəaliyyətidir. Ətraflı məlumat bu Emissiya prospektinin Xülasəsinin 1.9-cu bəndində əks etdirilmişdir.
- **İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı-**

Emitentin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır. Səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətləri Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107.1-ci maddəsində təsbit edilib. Cəmiyyətə nəzarəti Direktorlar şurası həyata keçirir. Emitentin nizamnaməsində onun müstəsna səlahiyyəti müəyyənləşdiriib. Direktorlar şurasının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən cəmiyyətin icra orqanlarına verilə bilməz.

- Cəmiyyətin icra orqanı Direktordur. O, cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, müşahidə şurasına və səhmdarların ümumi yığıncağına hesabat verir. İdarəetmə orqanlarının səlahiyyətləri bu Emissiya prospektinin “Emitent haqqında məlumatlar” bölməsinin 8.1-ci bəndində əks etdirilib.

**14.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat -** mövcud deyil.

## İSTIQRAZLAR BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

**15. Əsas məlumat**

**15.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat –**

- **Fond birjası**

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (bundan sonra-BFB) yeni emissiya ediləcək istiqrazlarının listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqısatqısı üçün mütəşəkkil ticarəti təşkil edir.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqinormativ aktları və BFB-nin nizamnaməsi və Daxili Qaydaları ilə tənzimlənir.

- **Milli Depozit Mərkəzi**

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. İstiqrazların yerləşdirilməsi prossesində MDM-in əsas vəzifəsi istiqrazların saxlanması və istiqraz mülkiyyətçilərinin reyestrinin aparılmasıdır.

Milli Depozit Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının "Qiymətli kağızlar bazarı haqqında" Qanunu və MDM-in daxili Qaydaları ilə tənzimlənir.

- **Anderrayter**

Emitent qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti ilə məşğul olduğunu nəzərə alaraq, istiqrazların anderrayteri qismində özü çıxış edəcəkdir. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**15.2. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat-** Emissiyanın məqsədi alternativ maliyyə resurslarının cəlb edilməsi yolu ilə cəmiyyətin fəaliyyətinin genişləndirilməsi və bu yolla mənfəətin əldə edilməsidir.

**15.3. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri** İstiqrazların buraxılışı hər hansı bir layihəni maliyyələşdirmək üçün nəzərdə tutulmadığından maliyyələşmənin alternativ yolu nəzərdə tutulmayıb.

**15.4. Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat-** nəzərdə tutulmayıb.

**16. İstiqrazlar barədə məlumat.**

**16.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik-** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016 -cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya Prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar".

**16.2. İstiqrazların növü-** Diskontlu, təmin edilməmiş, adlı istiqrazlar;

**16.3. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə)-** təklif edilən qiymətli kağızların sayı- hər birinin nominal dəyəri 1000 (bir min) ABŞ dolları olan 1 000 (bir min) ədəd istiqraz;

**İstiqrazların valyutası –** ABŞ dolları;

**Mövcud olan istiqrazlar -**
1. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1 000 (bir min) ədəd istiqraz (dövlət qeydiyyat nömrəsi- AZ2002019712);
2. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1 000 (bir min) ədəd istiqraz (dövlət qeydiyyat nömrəsi- AZ2001019713);
3. Hər birinin nominal dəyəri 1000 (bir min) ABŞ dolları olan 1 000 (bir min) ədəd istiqraz (dövlət qeydiyyat nömrəsi- AZ2003019711).

**16.4. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer -** Milli Depozit Mərkəzi Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.
**Faktiki ünvanı:** Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
**Telefon:** 994-12- 5383190
**E-mail:** info@mdm.gov.az**.**
**16.5. Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat-** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.
**16.6. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər-** İstiqrazın mülkiyyətçisi aşağıdakı hüquqlara malikdir:
İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;
Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda istiqrazların nominal dəyərini vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.
İstiqrazlara dair məhdudiyyət nəzərdə tutulmayıb.
**16.7. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda)-** istiqrazlar üzrə faiz dərəcəsi müəyyən olunmayıb.
**16.8. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti-** İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 360 gün təşkil edir. İstiqrazların tədavül müddəti istiqrazların BFB-də yerləşdirildiyi gün başlayır.
**16.9. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti-** əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372 - 384-cü maddələri ilə tənzimlənir. Mülki Məcəllənin 373.3-cü maddəsinə əsasən vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti üç ildir;
**16.10. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu-**
Y=((P_1-P_0 ))/P_0 *T/t*100
Y – illik gəlirlik
P_1 – nominal dəyər (1 000 ABŞ dolları)
P_0 – Alış qiyməti
T – baza period (360 gün)
t – Tədavül müddətinin sonuna qalan günlər.
**16.11. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya**

**prosedurları-** İstiqrazların baza aktivi yoxdur. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir etməyəcəkdir;

**16.12. Ödənişlər üzrə hesablaşma agentinin adı-** "AzFinance İnvestisiya Şirkəti" QSC.

**16.13. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat-** istiqrazlar təminatsız formada buraxılır;

**16.14. İstiqrazların geri satın alınmasının şərtləri-** istiqrazlar üzrə geri satın alınma nəzərdə tutulmayıb;

**16.15. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası-**

Y=((P_1-P_0 ))/P_0 *T/t*100

Y – illik gəlirlik

P_1 – nominal dəyər (1 000 ABŞ dolları)

P_0 – Alış qiyməti

T – baza period (360 gün)

t – Tədavül müddətinin sonuna qalan günlər.

**16.16. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat -** nəzərdə tutulmayıb;

**16.17. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı –** 26.04.2023-cü il tarixli, "AzFinance İnvestisiya Şirkəti" QSC-nin Növbədənkənar ümumi yığıncağının 01/23 nömrəli Protokolu;

**16.18. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda)-** nəzərdə tutulmayıb;

**16.19. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi-** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**17. Təklifin şərtləri.**

**17.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri-**

**Yerləşdirmənin başlanma tarixi:** İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə hərracın keçirilməsi ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. İstiqrazlar məhdudiyyət olmadan bütün fiziki və hüquqi şəxslərə təklif olunacaqdır. İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalarının 3.12-ci bəndinə əsasən, istiqrazların yerləşdirilməsinə başlanılması tarixinə ən azı 2 iş günü qalmış "AzFinance İnvestisiya Şirkəti" QSC qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixini və hərracın keçirilməsi şərtlərini elan edəcək və fond birjasına bu barədə yazılı bildiriş göndəriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır.

**Yerləşdirmənin başaçatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

**17.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası-** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün

ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində AR Mərkəzi Bankına təqdim edilir. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**17.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı-** Təklif "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

**17.4. İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat-** İstiqrazlar hərrac üsulu ilə yerləşdiriləcəkdir;

**17.5. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası-** İstiqrazlar rəqabətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların tədavül müddəti onların ilkin yerləşdirlidiyi gündən sonra başlanır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. İstiqrazlar üzrə hesablaşma T+0 rejimində, yəni hərrac günü baş tutacaqdır. İstiqrazların alınması üçün nəzərdə tutulmuş pul vəsaitləri investorlar tərəfindən müştərisi olduğu İnvestisiya Şirkətinin hesablaşma agentinin bank hesabına hərrac günü köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) açıqlanır;

**17.6.** İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və
Qaydası- İstiqrazların dəyərinin ödənilməsi köçürmə yolu ilə investisiya şirkəti vasitəsilə həyata keçirilir. Hərrac başa çatdıqdan sonra 1 iş günü ərzində investisiya şirkəti hərrac zamanı investor üçün aldığı istiqrazlar barədə rəsmi məlumatı (hesabatı) investora təqdim edir. Müştərinin ərizəsi ilə İnvestisiya Şirkəti tərəfindən müştəriyə istiqrazlara dair hüquqları təsdiq edən depo hesabından çıxarış təqdim edilə bilər;

**17.7. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat -** emissiya ediləcək istiqrazlar həm fiziki həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər;

**17.8. İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat-** Hərracın keçirildiyi gün investorlara hərracın başlanması saatı elektron poçt vasitəsi ilə bildiriləcəkdir.

**17.9. İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirilməsi metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat**-

Qiymətin müəyyənləşdirilməsi prosesində Emitentin qanuni təmsilçisi məsuliyyət daşıyır.

Y=((P_1-P_0 ))/P_0 *T/t*100

Y – illik gəlirlik

P_1 – nominal dəyər (1 000 ABŞ dolları)

P_0 – Alış qiyməti

T – baza periodu (360 gün)

t – Tədavül müddətinin sonuna qalan günlər.

**17.10. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği-** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu

AzFinance
INVESTMENT COMPANY

müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.
əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;
investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
"depo" hesab açılması üçün 10 manat;
hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

**17.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı-** Emitent qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti ilə məşğul olduğunu nəzərə alaraq, istiqrazların anderrayteri (öhdəlik götürmədən) qismində özü çıxış edəcəkdir; Emitent İqtisadiyyat Nazirliyi tərəfindən 6 yanvar 2016-cı il tarixində verilmiş İSN/L-7/2016 nömrəli Lisenziya əsasında İnvestisiya Şirkəti fəaliyyəti ilə məşğul olur. Xidmət haqqı nəzərdə tutulmayıb.

**17.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı-** Emitent qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti ilə məşğul olduğunu nəzərə alaraq, istiqrazların anderrayteri (öhdəlik götürmədən) qismində özü çıxış edəcəkdir və müqavilənin bağlanması nəzərdə tutulmayıb.

**18. Ticarətə buraxılma və onun tənzimlənməsi.**

**18.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri -** İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə hərracın keçirilməsi üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti
VÖEN-i: 1700262271
Dövlət qeydiyyatının tarixi və nömrəsi: 27.08.1997-ci il, № 3
"Bakı Fond Birjası" QSC müddətsiz lisenziyaya malikdir. Fəaliyyət istiqaməti- Dövlət qiymətli kağızları bazarının, korporativ qiymətli kağızlar bazarının, törəmə
maliyyə alətləri bazarının ticarətinin təşkil və idarə edilməsidir. Qiymətli kağızların ticarətə buraxılması "Bakı Fond Birjası" QSC-nin "Bakı Fond birjasında qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" na əsasən həyata keçirilir.;

**18.2. Market meyker(lər) barədə məlumat--** Emitent tərəfindən gələcəkdə istiqrazların təkrar bazarda tədavülü üçün prosesə market meyker(lər) cəlb edilə bilər.

**19. Kredit reytinqləri.**

**19.1. Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri -** mövcud deyil.